HƏYATİ HEKAYYƏ



# DORİ

## HEÇ KİM TƏRƏFİNDƏN SEVİLMƏYƏN

MƏTN: ARLENE ADAMS
İLLÜSTRASIYALAR: QEYNENE HAYNES VƏ CON HARMS

# DORİ

## HEÇ KİM TƏRƏFİNDƏN SEVİLMƏYƏN










XAHİŞ EDİRƏM, ANA... MƏNİ DƏ QUCAQLA!
ÇƏKİL, MƏNİ İNCİTMƏ, YORĞUNAM!
ANA MƏTBƏXƏ GEDİRDİ
HEY, DORİ! SƏN YENƏ STƏKAN SINDIRMISAN! NƏ AXMAQ, NƏ SƏLİQƏSİZ QIZSAN! BİR İŞİ EHTİYATLA GÖRƏ BİLMİRSƏN?
ONU BƏRK VURURDU.
O BİRİ DƏFƏ İŞ GÖRƏNDƏ YADINDA QALSIN, SƏLİQƏLİ OL!
İNDİSƏ GET YAT, SƏNƏ YEMƏK YOXDUR!
ÇOX VAXT DORİ YATMAZDAN ƏVVƏL, ANASINDAN GİZLİ GECƏLƏR AĞLAYIRDI.
NƏ ÜÇÜN O MƏNİ XOŞLAMIR? NƏ ÜÇÜN O, MƏRYƏMİ SEVİR, MƏNİ İSƏ YOX? NƏ ÜÇÜN HƏMİŞƏ O DEYİR Kİ, MƏN EYBƏCƏRƏM?
AL, MƏRYƏM, AL, SU İÇ... BU MÜRƏBBƏLİ ÇÖRƏYİ DƏ YE.
DORİ KİÇİK BACISINA YAXŞI BAXIRDI.


AYLAR, İLLƏR BİR-BİRİNƏ BƏNZƏR KEÇİRDİ...
DORİ İSTƏNİLƏN VƏ SEVİLƏN QIZ OLMADIĞINI BİLİRDİ. EVLƏRİNDƏ GÜLÜŞ OLMURDU – NƏ OYUNCAQ VAR İDİ, NƏ DƏ ŞƏNLİK.
LAKİN BİR GÜN HƏR ŞEY DƏYİŞDİ. ANA EVƏ DƏHŞƏTLİ XƏBƏRLƏ GƏLDİ.
İSTİ PALTARLARINIZI GEYİNİN VƏ MƏNİMLƏ GƏLİN. DAHA SİZƏ BAXA BİLMİRƏM, SİZİ BİR EVƏ APARACAĞAM.
?
ONLAR TRAMVAYA MİNDİLƏR, DORİ VAR-YOXUNU KAĞIZ TORBADA DAŞIYIRDI.
„BİR EVƏ" NƏ DEMƏKDİR? O NECƏ EVDİR Kİ?
ONLAR HÜNDÜR DƏMİR QAPININ YANINDA DAYANDILAR.
ANALARI TAPŞIRDI Kİ, ONLAR İÇƏRİ GETSİNLƏR.
?
SAĞ OLUN, GÖRÜŞƏRİK.
ONLAR NAHAR VAXTI GƏLMİŞDİLƏR VƏ ONLARI DƏRHAL UZUN MASALARIN ARXASINDA OTURMUŞ 60 UŞAĞIN YANINA, YEMƏKXANAYA APARDILAR.
BU UŞAGLAR KİMDİR? BURA MƏKTƏBDİR?
**SAKİT OLUN!** TEZ YEMƏYİNİZİ YEYİN. DANIŞMAG İSTƏYƏN ƏLİNİ GALDIRSIN!


ÖÖÖ! ÇUĞUNDUR! ÇUĞUNDUR SEVMİRƏM!
ONDA ONU SEVMƏYİ ÖYRƏN. ONU YEMƏSƏN MASANIN ARXASINDAN DURMAYACAQSAN!
DORİ BALACA, İNADKAR QIZ İDİ, LAKİN MÜDİR ONDAN DA İNADKAR İDİ.
NAHAR VAXTI KEÇDİ... ŞAM VAXTI KEÇDİ... DORİ ÇUĞUNDURU YEMƏK İSTƏMİRDİ, LAKİN MASANI TƏRK ETMƏYƏ ONA İCAZƏ VERİLMİRDİ.
AXIRDA YATMAQ VAXTI GƏLDİ. MƏRYƏMİ KİÇİK UŞAQLARLA BİRLİKDƏ YATMAĞA GÖNDƏRDİLƏR, DORİ TƏK QALDI. TƏSƏRRÜFAT İŞLƏRİNƏ BAXAN QADIN QƏFLƏTƏN ONU ÇUBUQLA VURUB YATMAĞA GÖNDƏRDİ.
BU EVDƏ SƏNƏ NƏ DEYİLİRSƏ, ONU ETMƏYİ ÖYRƏNMƏLİSƏN!
O, 20 YATAQLI BÖYÜK BİR YATAQ OTAĞINA APARILDI...
BU SƏNİN YATAĞINDIR. PALTARLARINI O ASILQANA AS VƏ YATMAĞA GET, TEZ OL!
ANAM TEZ GƏLƏCƏK?
HƏ, HAÇANSA BİR GÜN GƏLƏCƏK.
DORİ HƏMƏN O İLK GECƏNİ YATANA QƏDƏR AĞLADI VƏ BU, NÖVBƏTİ YEDDİ İL ƏRZİNDƏ TƏKRAR OLUNURDU.


NÖVBƏTİ SƏHƏR...
BU YERİN ADI NƏDİR?
BU UŞAQ EVİDİR. ƏGƏR HEÇ KİM SƏNİ İSTƏMİRSƏ, ONDA SƏNİ BURAYA GƏTİRİRLƏR.
TƏSƏRRÜFAT İŞLƏRİNƏ BAXAN QADIN MİSS QABRİEL OYUNCAQ OTAĞINI ONA GÖSTƏRDİ.
ÖZ ŞEYLƏRİNİ ORAYA YIĞMAQ ÜÇÜN HƏR UŞAĞIN ÖZ QUTUSU VAR. O AXIRINCI QUTU SƏNİNDİR...
HANSI ŞEYLƏR ÜÇÜN? MƏNİM HEÇ NƏYİM YOXDUR.
OYUNCAQLARININ BİRİNİ QUTUMDA SAXLAYA BİLƏRƏMMİ?
DƏYMƏ! BUNLAR MƏNİMDİR...
BURADA OTURUB ANAMI GÖZLƏYƏCƏYƏM. ÜMİD EDİRƏM Kİ, O ÇOX LƏNGİMƏYƏCƏK.
LAKİN GÜNLƏR, HƏFTƏLƏR KEÇDİ VƏ ANA GƏLMƏDİ. AXIRDA DORİ BAŞA DÜŞDÜ Kİ, O BURADA QALMALIDIR.
HEY, BUNA DƏYMƏ, BU MƏNİMDİR!
ONU MƏNƏ VER! MƏN DƏ OYNAMAQ İSTƏYİRƏM!
O, HƏR SƏHƏR VERİLƏN KAŞANI YEMİRDİ.
ONU SONRA ƏL-ÜZ YUYANA TÜPÜRƏCƏYƏM.
TƏSƏRRÜFAT İŞLƏRİNƏ BAXAN GADIN ONU TUTDU.
DORİ!
BU DƏQİQƏ BURAYA GƏL!


ONUN AĞZINI İÇƏRİDƏN SABUNLA YUDU... ONDAN SONRA KAŞA DAHA DADLI OLDU.
İİİ!
NƏHAYƏT, DORİ ÖZÜNƏ BİR RƏFİQƏ TAPDI...
AL, DORİ. SƏN MƏNİM RƏNGLİ QƏLƏMLƏRİMDƏN İSTİFADƏ EDƏ BİLƏRSƏN.
ÇOX SAĞ OL, ESTER. MƏN DƏ BİZİM İKİMİZ ÜÇÜN MƏKTƏBDƏ VERİLƏN BU KAĞIZI SAXLAMIŞAM.
LAKİN BİR GÜN GÖRDÜ Kİ, ESTER YOXDUR.
ESTER HARADADIR?
O BU GÜN GETDİ. BİR AİLƏ ONU ÖVLADLIĞA GÖTÜRDÜ.
DORİ YATAĞININ ÜSTÜNƏ YIXILIB AĞLADI.
SƏNƏ DEMİŞDİM Kİ, BURADA YAXIN RƏFİQƏN OLMASIN! ONLAR ÇIXIB GEDƏNDƏ SƏNƏ DAHA DA PİS OLUR!
BU SAAT AĞLAMAĞINI KƏS! SƏNİN ANCAQ ÖZÜNƏ YAZIĞIN GƏLİR!
MİSS QABRİYEL HƏMİŞƏ UŞAQLARI SƏBƏBSİZ DÖYÜRDÜ...
DORİ ETMƏDİYİ İŞLƏRƏ GÖRƏ DƏ DÖYÜLÜRDÜ!




DORİNİN HƏYATINI BƏZƏYƏN İKİ MƏŞĞULİYYƏTİ VAR İDİ – OXUMAQ VƏ ŞƏKİL ÇƏKMƏK.







KİTAB DÜKANININ YANINDA...
BİR GÜN MƏN MƏŞHUR RƏSSAM OLACAĞAM. MƏNİM RƏSMLƏRİM BURADA OLACAQ.
ANCAQ DORİ ƏN ÇOX ONU HƏQİQƏTƏN SEVƏN BİR AİLƏNİN ÜZVÜ OLMAQ İSTƏYİRDİ.
HƏ, GÖRÜNÜR Kİ, SƏNİ SEVƏNDƏ YAXŞI OLUR!
UŞAQ EVİNDƏ AYDA BİR DƏFƏ UŞAQLARI HƏYƏCANLANDIRAN ÇOX XÜSUSİ GÜN OLURDU. UŞAQLARI ÖVLADLIĞA GÖTÜRMƏK İSTƏYƏN ADAMLAR GƏLİRDİLƏR VƏ SAXLAMAQ İSTƏDİKLƏRİ UŞAĞI SEÇİRDİLƏR.
DORİ ÜZÜNÜ YUYUR, SAÇINI DARAYIR, ƏN YAXŞI PALTARINI GEYİRDİ.
XAHİŞ EDİRƏM, BU GÜN BİR NƏFƏR MƏNİ SEÇSİN!
LAKİN HƏR AY DORİDƏN YAN KEÇİRDİLƏR...
YAXŞI, BU SARI SAÇLI BALACA QIZI GÖTÜRÜN.
O BALACA ŞİRİN OĞLANA BAX!
O, BAŞ ÇƏKMƏLƏRƏ TEZLİKLƏ NİFRƏT ETDİ VƏ ADAMLAR GƏLƏNDƏ GİZLƏNİRDİ.
DORİ, ÇIX ORADAN, SƏN ÖZÜNÜ AXMAQ KİMİ APARIRSAN!
ONLAR MƏNİ SEÇMİRLƏR, ÇÜNKİ MƏN KÖK VƏ KİFİRƏM. NƏ ÜÇÜN MƏN ORAYA GETMƏLİYƏM?


BİR GÜN BİR QRUP TƏLƏBƏ UŞAQ EVİNƏ GƏLDİ. ONLAR UŞAQLARA MAHNI OXUYUR VƏ BİBLİYADAN HEKAYƏLƏR DANIŞIRDILAR.
?
ALLAH SƏNİ ÇOX SEVİR, SƏNİN ATAN OLMAQ VƏ SƏNİN QEYDİNƏ QALMAQ İSTƏYİR.
BU YALANDIR! HEÇ KİM MƏNİ SEVMİR!
O SƏNİ ÇOX SEVİR VƏ SƏNİN ETDİYİN BÜTÜN SƏHV İŞLƏRƏ GÖRƏ CƏZANI GÖTÜRMƏYƏ OĞLU İSA MƏSİHİ GÖNDƏRDİ Kİ...
SƏN BAĞIŞLANA VƏ ALLAHIN YANINA GƏLƏ BİLƏSƏN.
SİZLƏRDƏN KİM İNDİ ONA ÖZ HƏYATINI VERMƏK İSTƏYİR?
MƏN İSTƏYİRƏM, AMMA BİLİRƏM Kİ, BAŞQALARI MƏNƏ GÜLƏCƏK.
BU GÜN DEYİLƏNLƏRİN HAMISINI UNUTSAN DA, YALNIZ BİR ŞEYİ YADDA SAXLA...


ALLAH SƏNİ SEVİR!
ALLAH MƏNİ SEVİR? DOĞRUDAN?
YAXŞI, ALLAH, BELƏDİRSƏ, ONDA SƏN MƏNİ SEVƏN YEGANƏ ŞƏXSSƏN. ƏGƏR SƏN İSTƏYİRSƏNSƏ, MƏN ÖZÜMÜ SƏNƏ VERİRƏM.
ONUN BALACA YORĞUN ÜRƏYİNƏ GÖZƏL SAKİTLİK GƏLDİ VƏ O BİLDİ Kİ, NƏ İSƏ GÖZƏL HADİSƏ BAŞ VERDİ.
BU DÜZDÜR! ALLAH DOĞRUDAN DA MƏNİ SEVİR! MƏN BUNU İNDİ BİLİRƏM!
HƏMƏN O GECƏ YATANDA DORİ YENƏ DƏ AĞLADI.
NƏ OLUB, DORİ, NƏ ÜÇÜN AĞLAYIRSAN?
BU DƏFƏ SEVİNCİMDƏN... MƏN YAXŞIYAM!
BİR GÜN UŞAG EVİNƏ TƏSƏRRÜFAT İŞLƏRİNƏ BAXAN, MEHRİBAN BİR GADIN İŞLƏMƏYƏ GƏLDİ.
DORİ, MƏNİMLƏ KİLSƏYƏ GETMƏK İSTƏYƏRDİNMİ?
KİLSƏ? BİLMİRƏM O NECƏ OLUR. AMMA BƏLİ, GETMƏK İSTƏYƏRDİM.
ALLAH BİZİM HAMIMIZI SEVİR, LAKİN GÜNAHLARIMIZ BİZİ ONDAN AYIRIR...
GÜNAHIN CƏZASI ÖLÜMDÜR, LAKİN İSA BİZİM CƏZAMIZI ÖZ ÜZƏRİNƏ GÖTÜRDÜ Kİ...


ALLAHIN YANINA BİZİM ÜÇÜN YOL AÇSIN VƏ BİZ ALLAHDAN XAHİŞ EDƏK Kİ, O BİZİ BAĞIŞLASIN.
ONU QƏBUL EDƏNLƏRİN HAMISINA, ONUN ADINA İMAN EDƏNLƏRƏ İSƏ ALLAHIN ÖVLADLARI OLMAQ HAQQINI VERDİ.
HƏ, UŞAQ EVİNDƏ DUA EDƏNDƏ MƏNİMLƏ ELƏ BU BAŞ VERMİŞDİR!
DORİ, SƏNİN ÜÇÜN HƏDİYYƏM VAR.
MƏNİM ÜÇÜN HƏDİYYƏ? O NƏDİR?
BU, BİBLİYADIR, MÜQƏDDƏS KİTAB, ALLAHIN KƏLAMI. ONU HƏR GÜN OXU VƏ ALLAH ONUN VASİTƏSİLƏ SƏNİNLƏ DANIŞACAQ.
AH, ÇOX SAĞ OLUN! BU, HƏYATIMDA İLK HƏDİYYƏDİR!
NƏ MARAQLIDIR, MƏNİM ÖZ BİBLİYAM VAR. ÇOX SAĞ OL, ATA ALLAH. SÖZ VERİRƏM, ONU HƏR GÜN OXUYACAĞAM.
DORİNİN İNDİ 13 YAŞI VAR VƏ UŞAQ EVİNİ TƏRK ETMƏLİDİR. ONA VƏ BACISI MƏRYƏMƏ YAŞAMAQ VƏ TƏRBİYƏ ALMAQ ÜÇÜN YER TAPILDI. ONLAR YEDDİ İL UŞAQ EVİNDƏ OLDUQDAN SONRA SƏRBƏST HƏYAT BAŞLAMALIYDILAR.


TƏRBİYƏ ALMAQ ÜÇÜN YER ONLARIN TƏSƏVVÜR ETDİKLƏRİ KİMİ DEYİLDİ...
MƏN SƏNİN ANANIN RƏFİQƏSİYƏM. MƏNİ "NƏNƏ" DEYƏ ÇAĞIR.
BURADA MƏN NƏ DESƏM ONU DA ETMƏLİSƏN, YOXSA BUNU ALACAQSAN, BAŞA DÜŞDÜN?
NAHAR VAXTIDIR...
BƏLİ, NƏNƏ.
QIZLAR, ƏGƏR YEMƏK QALARSA, ONDAN SONRA YEYƏRSİNİZ.
SİZ MƏNƏ BAHA BAŞA GƏLİRSİNİZ. GEDİN, ANANIZI TAPIN VƏ ONA DEYİN Kİ, MƏNƏ DAHA ÇOX PUL VERSİN.
AXI BİZ ONU HARADAN TAPAQ?
MƏN NƏ BİLİM? O HARADASA OFİSİANT İŞLƏYİR... ÇIXIN GEDİN, AXTARIN!
PULSUZ QAYITMAYIN! SİZİ NƏ GÖZLƏDİYİNİ BİLİN!
GƏL, MƏRYƏM, TEZ GƏL!
DORİ VƏ MƏRYƏM KÜÇƏLƏRİ GƏZİR, BİR RESTORANDAN ÇIXIB O BİRİSİNƏ GEDİRDİLƏR.


XAHİŞ EDİRİK, AĞA. BİZ ANAMIZI AXTARIRIQ.
BURADA UŞAĞI OLAN QADIN İŞLƏMİR.
BİRDƏN ONLAR ANALARINI GÖRDÜLƏR.
ANA, ANA! BİZ SƏNİ TAPDIQ!
DORİ, RƏDD OL! SƏNİN ANAN DEYİLƏM!
XAHİŞ EDİRİK, ANA! NƏNƏ PUL İSTƏYİR!
DEYİN Kİ, İNDİ PULUM YOXDUR! İNDİ ÇIXIN GEDİN!
NƏNƏNİN YANINDA...
EY YARAMAZ QIZ! DEMİŞDİM Kİ, PULSUZ QAYITMA!
ƏZİZ ALLAH, NƏ OLDU? DUA EDİRDİM Kİ, ANAMIZI TAPAQ. SƏN BİZƏ KÖMƏK ETDİN, ONU TAPDIQ, LAKİN O BİZİ İSTƏMƏDİ VƏ PUL DA VERMƏDİ.
LAKİN ALLAH DORİNİ GÖRÜRDÜ VƏ BİR MÜDDƏT SONRA...
ONU VƏ BACISI MƏRYƏMİ NƏNƏNİN EVİNDƏN QIZLAR ÜÇÜN YATAQXANAYA APARDILAR.


MƏRYƏM, ÇARPAYILARIMIZIN ÜSTÜNƏ ÇƏKİLMİŞ GÖZƏL ÖRTÜKLƏRİ GÖRDÜN?
GÖRDÜM! BELƏLİKLƏ, YEMƏK DƏ DADLIDIR!
BU EV ONLARIN AĞIR HƏYATLARINDA XOŞ FASİLƏ İDİ, LAKİN YALNIZ DÖRD AY DAVAM ETDİ.
QIZLAR, ƏŞYALARINIZI YIĞIN. SİZƏ BİR AİLƏ TAPMIŞIQ.
MƏRYƏM, EŞİTDİN? KİMSƏ BİZİ GÖTÜRMƏK İSTƏYİR!
İNANA BİLMİRƏM! BÜTÜN BU İLLƏRDƏN SONRA!
GETDİKLƏRİ EVDƏ ONLARI NƏ GÖZLƏDİYİNİ BİLSƏYDİLƏR, QIZLAR BELƏ SEVİNMƏZDİLƏR...
NƏNƏ! SƏNSƏN? BİZ... SƏNİN EVİNƏ GEDİRİK?
XEYR. BU QADIN SİZİ ANANIZIN TANIDIĞI BİR AİLƏYƏ APARACAQ.
YOX, BU HEÇ DƏ YAXŞI SƏSLƏNMİR.
MAKİNİN EVİNDƏ...
BOŞ-BOŞ DANIŞMAQ YOXDUR! BURAYA İŞLƏMƏYƏ GƏLMİSİNİZ! İNDİSƏ MƏTBƏXƏ GEDİN VƏ BAŞLAYIN.
OH, YOX... YENƏ...


EY FƏRSİZ QIZ! BU QƏDƏR BAZARLIQ ETMƏK OLAR?
XAHİŞ EDİRƏM, MƏNİ VURMAYIN, BACARDIĞIM QƏDƏR TEZ QAÇIRDIM...
MƏRYƏM, NƏ ÜÇÜN ONLAR SƏNİ YOX, HƏMİŞƏ MƏNİ DÖYÜRLƏR? MƏN NƏYİ DÜZ ETMİRƏM?
BİLMİRƏM.
MƏRYƏM MAKİNİN QIZI İLƏ BİR OTAQDA YATIRDI, DORİ İSƏ DƏHLİZDƏ AÇILIB-BÜKÜLƏN ÇARPAYIDA YATIRDI VƏ ÇOX VAXT...
MAKİN XANIMIN OTAĞINA QƏRİBƏ KİŞİLƏR ONUN YANINDAN KEÇİB GEDİRDİLƏR.
MƏNƏ TOXUNMA!
YALNIZ ONLAR GEDƏNDƏN SONRA O ÖZ BALIŞININ ÜSTÜNƏ AĞLAYIRDI.
DORİ KİFAYƏT QƏDƏR BÖYÜK İDİ VƏ O, KİŞİLƏRİN NƏ İSTƏDİYİNİ BAŞA DÜŞÜRDÜ.
DORİ İSTƏYİRDİ Kİ, ONU SEVSİNLƏR, LAKİN İNSANLAR ARASINDA ONA ÖZ MƏHƏBBƏTİNİ TƏKLİF EDƏN BİR KİMSƏ TAPILMIRDI. ONDA DORİ YENƏ ALLAHA DÖNDÜ.
ATA, ÇOX SAĞ OL Kİ, SƏN MƏNİ SEVİRSƏN.
O HƏR SƏHƏR HAMAMDA QAPINI BAĞLAYIB MÜQƏDDƏS KİTAB OXUYURDU VƏ ALLAH ONUNLA DANIŞIRDI.
AH, NƏ GÖZƏL VƏDDİR! ONU YADDA SAXLAMALIYAM!
QORXMA, ÇÜNKİ MƏN SƏNİNLƏYƏM.


ƏZİZ ATA, MƏNƏ BU GÜN MƏKTƏBDƏ KÖMƏK ET. XAHİŞ EDİRƏM, QOYMA MƏKTƏBDƏN SONRA MAKİN XANIM MƏNİ DÖYSÜN.
ÇOX VAXT ALLAH DORİNİN MÜQƏDDƏS KİTABDAN ƏZBƏRLƏDİYİ SÖZLƏR VASİTƏSİLƏ ONUNLA DANIŞIRDI.
İSTƏRDİM MƏNİM DƏ BELƏ GÖZƏL PALTARIM OLSUN.
„DORİ, SƏNDƏ MƏSİHİN GÖZƏL SALEHLİK PALTARI VAR".
O BİRİ GÜN...
ÇOX ACAM, İSTƏRDİM Kİ, BİR ŞEY ALMAĞA PULUM OLSUN.
„İNSAN TƏKCƏ ÇÖRƏKLƏ YAŞAMAZ".
İSTƏRDİM Kİ, ƏLİMDƏN TUTAN BİR ADAM OLSUN.
„DORİ, MƏN SƏNİN ATAN, ANAN, BACIN, QARDAŞINAM. MƏN HƏMİŞƏ SƏNİNLƏ OLACAĞAM".
RAHAT YATACAĞAM, ÇÜNKİ SƏN MƏNİ QORUYURSAN.


BİR DƏFƏ BAZAR GÜNÜ GÜNORTA...
GÖRƏSƏN RADİODA NƏ VAR?
İSA, MƏNİ SEVDİYİNƏ GÖRƏ ÇOX SAĞ OL...
AH, NƏ GÖZƏL MAHNIDIR!
O VAXTDAN ETİBARƏN DORİ DUA EDİRDİ Kİ, MAKİNİN AİLƏSİ HƏR BAZAR GÜNÜ EVDƏN GETSİN VƏ ONUN RADİODA MÜJDƏ VERİLİŞİNƏ QULAQ ASMAQ İMKANI OLSUN.
ALLAH KƏLAMI DEYİR: „EY BÜTÜN YORĞUNLAR VƏ YÜKLƏRİ AĞIR OLANLAR, MƏNİM YANIMA GƏLİN VƏ MƏN SİZƏ RAHATLIQ VERƏRƏM”.
BAZAR GÜNLƏRİ DORİ ŞƏHƏRİN KÜÇƏLƏRİNDƏ GƏZİB KİLSƏ AXTARIRDI.
KİLSƏ TOPLANTISI HƏR BAZAR GÜNÜ SAAT 10.00.
O BAPTİST KİLSƏSİNƏ GƏLDİ VƏ BİR MÜDDƏT SONRA HAMININ QARŞISINDA VƏFTİZ OLDU.
ALLAH, MƏN TAMAMİLƏ SƏNİNKİYƏM VƏ İSTƏYİRƏM Kİ, BÜTÜN DÜNYA BUNU BİLSİN.
ATA, OĞUL VƏ MÜQƏDDƏS RUH NAMİNƏ SƏNİ VƏFTİZ EDİRƏM.
LAKİN MAKİNİN AİLƏSİ RAZI DEYİLDİ...
KİLSƏYƏ GEDİB VAXTINI İTİRİRSƏN! BİR YERƏ GETMƏZDƏN ƏVVƏL ORADA ODUN DOĞRA!


ONU O VAXTA QƏDƏR DÖYMƏKDƏ DAVAM EDİRDİLƏR Kİ, BİR GÜN MƏKTƏBDƏ...
OH, İNDİ DİVARA DƏYDİM.
DORİ, ÜZÜNƏ NƏ OLUB?
EVDƏ BAŞ VERƏN HADİSƏLƏRİ BİR KİMSƏYƏ DANIŞMAQDAN QORXURAM. MAKİNİN AİLƏSİ BİLSƏ Kİ, ONLARIN İŞLƏRİNİ KİMƏSƏ DANIŞIRAM, ONLAR MƏNİMLƏ BUNDAN DA PİS DAVRANACAQLAR.
DORİ, BURNUNDAN QAN GƏLİR!
HƏ, MƏKTƏBƏ GƏLƏNDƏ YOLDA YIXILDIM.
LAKİN NƏHAYƏT BİR GÜN MƏKTƏBDƏN KƏNARDA...
DORİS DAKVORT SƏNSƏN?
B-Ə... BƏLİ.
ANAN UŞAQLARINA BAXMAMAQDA TƏQSİRLƏNDİRİLİR. YAŞADIĞINIZ ADAMLARA DA BUNU DEMİŞİK.
VAY, YOX! İNDİ VAY HALIMA!
HƏMİN GÜN MAKİNİN AİLƏSİNDƏ...
BURA GƏL, NACİNS BALASI!


SƏN BİZƏ BUNU NECƏ EDƏ BİLDİN — SƏNƏ EV VERDİK, SƏNİNLƏ YAXŞI RƏFTAR EDİRDİK!
BİZİ POLİSƏ VERDİN!
DAYANIN, DAYANIN! MƏNİ ÖLDÜRƏCƏKSİNİZ!
ƏZİZ ALLAH, DAHA DÖZƏ BİLMİRƏM. XAHİŞ EDİRƏM, MƏNİ BURADAN ÇIXART.
İNSANIN NƏ QƏDƏR ÇƏTİNLİYƏ DÖZƏ BİLDİYİNİ ALLAH BİLİR.
BİR-NEÇƏ GÜN SONRA MƏHKƏMƏDƏ...
DORİS DAKVORT, QARŞIYA ÇIXIN.
LAURA DAKVORT, BU SİZİN QIZINIZDIRMI?
BƏLİ, MƏNCƏ. LAKİN HAKİM, İMKANIM OLSAYDI, DOĞULMASINDAN ƏVVƏL ONDAN AZAD OLARDIM.
QISA MÜZAKİRƏ OLDU VƏ SONRA HAKİM QƏRARI OXUDU.
DORİ VƏ MƏRYƏM SİZDƏN MÜVƏQQƏTİ OLARAQ ALINIR, MƏHKƏMƏ NƏZARƏTİ ALTINDA OLACAQLAR.
DORİS, SƏN MAKİNİN AİLƏSİNDƏN ALINIB YENİ EVƏ KÖÇÜRÜLƏCƏKSƏN.
EY ALLAH, ŞÜKÜR SƏNƏ! BUNU YALNIZ SƏN ETDİN!
ONUN ANASI AZĞIN İDİ.
SƏNİ BİR DƏ GÖRSƏM, ÖLDÜRƏCƏYƏM!


İNDİ İSƏ DORİ ANASININ NƏ ÜÇÜN ONA BELƏ NİFRƏT ETDİYİNİ BAŞA DÜŞDÜ...
O MƏNƏ HAMİLƏ OLANDA 15 YAŞINDA VƏ ƏRSİZ İDİ.
ELƏ BİLİR Kİ, HƏYATININ PİS OLMASINDA MƏN TƏQSİRKARAM.
O MƏNƏ GÖRƏ ƏRƏ GETDİ, LAKİN TEZLİKLƏ ATAM ONU TƏRK ETDİ...
ALLAH, XAHİŞ EDİRƏM, MƏNƏ KÖMƏK ET ONU BAĞIŞLAYIM. BU ÇOX ÇƏTİNDİR, LAKİN BİLİRƏM Kİ, BUNU ETMƏYİMİ İSTƏYİRSƏN.
ONA QARŞI ETDİKLƏRİNİN HAMISINA GÖRƏ ANASINI BAĞIŞLAMAQ QƏRARINA GƏLƏNDƏ ALLAHIN SÜLHÜ ÜRƏYİNƏ DOLDU, ACILIQ GETDİ VƏ ALLAH DORİNİN ÜRƏYİNDƏKİ YARALARI SAĞALTMAĞA BAŞLADI.
MƏRYƏM MAKİNİN AİLƏSİNDƏ QALDI, DORİ ÜÇÜN İSƏ BİR AİLƏ TAPILDI. YENƏ ƏŞYALARINI YIĞIB TANIMADIĞI ADAMLARIN YANINA TƏK GETDİ.
SALAM, DORİ, XOŞ GƏLMİSƏN!
ONLAR DORİ İLƏ MEHRİBAN OLMAĞI ÖZLƏRİNƏ BORC BİLİRDİLƏR, LAKİN ONU BİR KİMSƏNİN SEVMƏSİNƏ BÖYÜK EHTİYACI VAR İDİ.
ONLARIN BİR AZ DA OLSA MƏNİ SEVMƏLƏRİNİ İSTƏRDİM.
DORİ İLƏ MƏRYƏM BİR-BİRLƏRİNİ MƏKTƏBDƏ GÖRÜRDÜLƏR.
DORİ, SƏNƏ DEMƏYƏ SÖZÜM VAR... MƏN ƏRƏ GEDİRƏM!
YOX, MƏRYƏM, HƏLƏ YOX... SƏNİN YALNIZ 15 YAŞIN VAR!
ƏVVƏLCƏ MƏKTƏBİ QURTAR! SONRA BİR AZ İŞLƏ...
SƏN BAŞA DÜŞMÜRSƏN, MƏN...
DORİ, MƏN ƏRƏ GETMƏLİYƏM, MƏN UŞAQ GÖZLƏYİRƏM.
EH, YOX! NƏ ÜÇÜN MƏN ONUN QAYĞISINA QALMADIM! O DA MƏNİM KİMİ MƏHƏBBƏT AXTARIRDI...
LAKİN ONUN AXTARIŞI ONU SƏHV İSTİQAMƏTƏ APARDI.


HARAYA GEDİRSƏN?
BU GÜN BACIM MƏRYƏMİN TOYUDUR.
TOYA GETMƏYƏCƏKSƏN!
AXI... MƏN ONA LAZIMAM!
O, FƏRSİZ QIZDIR! SƏNİN ANAN KİMİ FƏRSİZ! BİZ İSTƏMİRİK Kİ, SƏN DƏ ELƏ OLASAN!
EY ALLAH, BƏZƏN HƏYAT HƏDDİNDƏN ARTIQ ÇƏTİN OLUR. XAHİŞ EDİRƏM, AĞIR VAXTLARIMDA MƏNƏ KÖMƏK ET.
VƏ XAHİŞ EDİRƏM, MƏRYƏMƏ VƏ ONUN ƏRİNƏ KÖMƏK ET. QOY GÖRSÜNLƏR Kİ, SƏN ONLARI SEVİR VƏ QEYDLƏRİNƏ QALIRSAN.
DORİNİN 16 YAŞI OLANDA MARAQ GÖSTƏRİB UŞAQ EVİNƏ BAŞ ÇƏKMƏK QƏRARINA GƏLDİ.
DOKTOR VELÇ!
DORİ, SƏNİ GÖRMƏYƏ ÇOX ŞADAM! NECƏSƏN?
YAXŞIYAM, ÇOX SAĞ OLUN.
DOKTOR VELÇ UŞAQ EVİNDƏ UŞAQLARA BAXAN HƏKİM İDİ VƏ ÖZ TƏKLİFİ İLƏ DORİNİ TƏƏCCÜBLƏNDİRDİ.
MƏNİM AİLƏMDƏ YAŞAYIB MƏNİMLƏ İŞLƏMƏK İSTƏYƏRDİNMİ?
ÇOX YAXŞI OLARDI, MƏMNUNİYYƏTLƏ!
VELÇ AİLƏSİNDƏ...
GƏL İÇƏRİ, DORİ. ÜMİD EDİRİK Kİ, BİZDƏ SƏNƏ ÇOX YAXŞI OLACAQ.



DORİ, BU SƏNİN OTAĞINDIR. YATAĞIN ÜSTÜNDƏKİLƏR SƏNİN ÜÇÜN TƏZƏ PALTARDIR.
BUNLARIN HAMISI MƏNİMKİDİR? NƏ ÜÇÜN? ÇOX GÖZƏLDİR!
SONRA O BAŞA DÜŞDÜ...
AXI... BU Kİ XÜSUSİ GEYİMDİR! NİYƏ? MƏN Kİ XADİMƏYƏM!
LAKİN DORİ HƏKİMİN AİLƏSİNDƏ XOŞBƏXT İDİ. BU, ONUN QEYDİNƏ QALAN İLK AİLƏ İDİ.
DORİ, SƏN UŞAQLARLA YAXŞISAN. İNDİ İSƏ GƏL İSTİRAHƏT ET. BÜTÜN GÜNÜ İŞLƏDİKDƏN SONRA YƏQİN Kİ, SƏN YORULMUSAN.
KİTABLARDAN İSTƏDİYİNİ GÖTÜR OXU.
HANSI KİTABI OXUYURSAN?
BU MƏNİM BİBLİYAMDIR. HƏR GÜN ONU OXUYURAM.
BU KİTAB ALLAH HAQQINDA ÖYRƏDİR VƏ MƏN ONU DAHA DA YAXŞI TANIMAQ İSTƏYİRƏM. ALLAH MƏNƏ ÇOX KÖMƏK EDİB.
YAXŞI Kİ, ÇƏTİN VAXTLARINDA DİNDƏN TƏSƏLLİ ALA BİLMİSƏN.
EH, BU DİNDƏN DƏ BÖYÜK BİR ŞEYDİR. VELÇ XANIM, İSA MƏNİM GÜNAHLARIMI GÖTÜRÜB VƏ MƏNİ ALLAH AİLƏSİNİN ÜZVÜ EDİB.
SİZ DƏ DUA ETSƏNİZ BUNU SİZİN ÜÇÜN DƏ EDƏR.
MƏNƏ LAZIM DEYİL, DORİ. YAXŞI ƏRİM, İKİ ÖVLADIM VAR. DAHA MƏNƏ NƏ LAZIMDIR?
O MƏNİMLƏ ÇOX MEHRİBANDIR, LAKİN İSTƏRDİM O MƏNİM DEDİKLƏRİMİ BAŞA DÜŞSÜN!


DORİ MƏKTƏBDƏ VƏ RƏSM KOLLECİNDƏ TƏHSİLİNİ DAVAM ETDİRDİ. İNDİ ONUN 19 YAŞI VAR. O BAŞA DÜŞÜR Kİ, BU AİLƏDƏ HƏMİŞƏ QULLUQÇU KİMİ QALA BİLMƏZ. BİR GÜN DOKTOR VELÇ ONU TƏƏCCÜBLƏNDİRDİ...
DORİ, ATAN HARADADIR?
MƏNİM... ATAM? BİLMİRƏM. ONU HEÇ VAXT GÖRMƏMİŞƏM.
GƏL ONU AXTARAQ.
MƏNCƏ, EŞİTMİŞƏM Kİ, O, OKLAHOMADA YAŞAYIR.
MƏLUMAT BÜROSU? MƏN HƏKİMƏM. MƏNƏ DEYƏRDİNİZMİ, L. DAKVORT OKLAHOMADA TULSA ŞƏHƏRİNDƏ YAŞAYIR?
ZƏHMƏT OLMASA, BİR DƏQİQƏ GÖZLƏYİN. BƏLİ, YAŞAYIR. ONUN TELEFON NÖMRƏSİNİ GÖTÜRMƏK İSTƏYİRSİNİZMİ?
YOX, ÇOX SAĞ OLUN. YALNIZ BİLMƏK İSTƏYİRDİM Kİ, O ORADA YAŞAYIR YA YOX.
HƏ, DORİ... MƏNƏ ELƏ GƏLİR Kİ, ATANIN ÜNVANINI TAPIB ONA MƏKTUB YAZMALIYIQ.
TANIMADIĞIN ADAMA MƏKTUB YAZIB, ATA OLDUĞUNU ONDAN SORUŞMAQ ÇOX QEYRİ-ADİDİR.
İKİ HƏFTƏ SONRA...
MƏKTUBU ALIN. BURAYA QOL ÇƏKƏRSİNİZMİ?
ƏLBƏTTƏ!


BU MƏKTUB MƏNƏDİR.
HƏ, ONU TEZ AÇ.
AÇA BİLMİRƏM, MR. DAKVORTDANDIR!
OXUYA BİLMİRƏM. SİZ OXUYUN VƏ NƏ YAZDIĞINI MƏNƏ DEYİN.
YAXŞI, VER MƏN AÇIM.
ATAMI TAPMIŞAM!
GÖR BURADA NƏ YAZIB!
İNANA BİLMƏZDİM Kİ, BU SƏNSƏN... BÜTÜN KEÇMİŞ GÖZÜMÜN QABAĞINA GƏLDİ... ŞADAM Kİ, YAXŞISAN. MƏNƏ YENƏ YAZ.
BUNUN DOĞRUDAN DA YUXU YOX, HƏQİQƏT OLMASINA İNANA BİLMİRƏM!
BİR NEÇƏ HƏFTƏ SONRA TELEFON ZƏNG ÇALDI...
DORİSLƏ DANIŞA BİLƏRƏMMİ?
BƏLİ, BUYURUN.
DORİ, ƏZİZİM, BU SƏNİN ATANDIR. SƏNİ GÖRMƏK İSTƏYİRƏM. BİZƏ QONAQ GƏLMƏK İSTƏRDİNMİ?
QORXURAM. YENƏ RƏDD OLUNMAQ İSTƏMİRƏM.
XEYR, ATA. SƏN MƏNİ GÖRSƏN MƏNİ QƏBUL ETMƏK İSTƏMƏZSƏN.
AXMAQ OLMA! ƏLBƏTTƏ, SƏNİ QƏBUL ETMƏK İSTƏYƏCƏYƏM! YOL PULUNUN YARISINI SƏNƏ GÖNDƏRİRƏM. XAHİŞ EDİRƏM, TEZ GƏL.


DORİ CƏSARƏTİNİ YIĞIB KALİFORNİYADAN OKLAHOMAYA GEDƏN AVTOBUSA BİLET ALDI.
ONU NECƏ TANIYACAĞAM?
O MƏNİ XOŞLAMASA, ONDA NECƏ?
ÇATANDAN SONRA AVTOBUS DAYANACAĞINDA DORİ NAMƏLUM ADAMLARIN ÜZÜNƏ BAXIRDI.
BAĞIŞLAYIN, AĞA. SİZ MƏNİM ATAMSINIZMI?
DORİ!
ATASI ONU ÖZ EVİNƏ APARDI.
DORİ, HƏYAT YOLDAŞIM BLANKE İLƏ TANIŞ OL.
XOŞ GƏLMİSƏN, DORİ.
DORİ, BƏLKƏ BİZİMLƏ QALASAN? BURADA ÖZÜNƏ İŞ TAPA BİLƏRSƏN.
O DOĞRUDAN DA MƏNİ İSTƏYİR! O MƏNİ SEVİR!
ÇOX SAĞ OL, ATA. MƏN QALMAQ İSTƏYİRƏM.
ATA, NƏ ÜÇÜN HEÇ VAXT ÇALIŞIB BİZİ AXTARMAMISAN?
KEÇMİŞİ UNUT. O BARƏDƏ DANIŞMAQ İSTƏMİRƏM.
ATA, SƏNİN YANINA GƏLMƏMİŞDƏN ƏVVƏL MƏNİM YALNIZ BİR NƏFƏR YAXŞI DOSTUM OLUB.
HƏ? O KİM İDİ?


İSA. UŞAQ EVİNDƏ HƏYATIM ÇƏTİN OLANDA MƏN ONA HƏYATIMI VERDİM VƏ O MƏNİM ƏN YAXIN DOSTUM OLDU.
ALLAH ÜÇÜN VAXTIM YOXDUR. ELƏ SÖHBƏTLƏRİ DƏ EŞİTMƏK İSTƏMİRƏM.
AMMA, ATA, O SƏNİ SEVİR!
BOŞ-BOŞ DANIŞMA! SƏNƏ DİN LAZIMDIR – ÖZ İŞİNDİR. MƏNƏ İSƏ MARAQLI DEYİL. BU BARƏDƏ DAHA EŞİTMƏK İSTƏMİRƏM!
CAVANSAN, GET KEF ET. HƏYATA CİDDİ YANAŞMAQ ÜÇÜN SƏN HƏLƏ ÇOX CAVANSAN.
AXI NƏ ÜÇÜN ADAMLARIN ƏKSƏRİYYƏTİ BAŞA DÜŞMÜR?
DORİ ATASI İLƏ İKİ İL YAŞADI, LAKİN DAXİLİNDƏKİ MÜBARİZƏ YALNIZ MÖHKƏMLƏNİRDİ.
EYNİ ZAMANDA HƏM SƏMAVİ, HƏM DƏ YER ÜZÜNDƏKİ ATAMI RAZI SALA BİLMİRƏM.
ONA ELƏ GƏLDİ Kİ, SƏS ONA NƏ İSƏ DEYİR...
HEÇ KİM SEVMƏYƏNDƏ SƏNİ KİM SEVİRDİ?
DÜZDÜR! UŞAQ EVİNDƏ OLANDA ATAM MƏNİ AXTARMIRDI, MƏNİ TAPMAQ ÜÇÜN BİR CƏHD DƏ ETMƏDİ.
ANAM MƏNİ TƏHQİR EDİB YARALAYANDA ALLAH MƏNƏ TƏSƏLLİ VERİRDİ...
RƏBB, ÇƏTİN VAXTLARIMDA YALNIZ SƏN YANIMDA OLMUSAN. SƏNDƏN DÖNMƏYƏCƏYƏM.
ATA, KALİFORNİYAYA QAYITMAQ QƏRARINA GƏLDİM.
ƏZİZİM, SƏN BELƏ İSTƏYİRSƏNSƏ, MƏN ETİRAZ ETMİRƏM.
ÜRƏYİNDƏ BİR SIXINTI İLƏ DORİ ƏŞYALARINI YIĞDI, ATASINA „SAĞ OL" DEDİ VƏ AVTOBUS DAYANACAĞINA TƏRƏF YOLLANDI.


DORİNİN İNDİ 21 YAŞI VAR. TEZLİKLƏ O YENİ İŞ TAPDI VƏ YENƏ KALİFORNİYADA YAŞAMAĞA BAŞLADI. LAKİN HƏYATININ YAXŞI OLMASINA BAXMAYARAQ, O NARAHAT İDİ.
HƏYATINI MƏNİM HAQQIMDA BAŞQALARINA DANIŞMAĞA HƏSR EDƏRSƏNMİ?
YƏNİ İŞDƏN ÇIXIM? BAŞQA ÖLKƏYƏ GEDİM? EY ALLAH, BU ÇOX ÇƏTİN OLAR.
AMMA İSA ÖZ HƏYATINI MƏNƏ GÖRƏ QURBAN VERDİ. MƏNİM NƏYƏ İSƏ NECƏ HEYFİM GƏLƏ BİLƏR?
YAXŞI, ALLAH. İSTƏDİYİNİ EDƏCƏYƏM. HARAYA İSTƏSƏN, ORAYA GEDƏCƏYƏM.
ALLAH DORİYƏ DEDİ Kİ, O, UZAQ ÖLKƏDƏ YAŞAYAN VƏ ONUN MƏHƏBBƏTİ HAQQINDA EŞİTMƏYƏN ADAMLARIN YANINA GETSİN.
GETMƏMİŞDƏN ƏVVƏL VALİDEYNLƏRİMİ GÖRÜB ONLARLA VİDALAŞMALIYAM.
BURADADIR!
ÖZ İŞİNDƏ XOŞBƏXT GÖRÜNÜR. HEÇ, GÖRƏSƏN, MƏNİ YADA SALIRMI?
ONUNLA DANIŞMAQ İSTƏYİRSƏNMİ?
YOX, YAXŞI OLAR Kİ, DANIŞMAYIM.
HƏLƏ DƏ AĞRIYIR, LAKİN MİNNƏTDARAM Kİ, SƏN MƏNƏ ONU BAĞIŞLAMAĞA KÖMƏK ETDİN. XAHİŞ EDİRƏM, ONA XEYİR-DUA VER. ONUN SƏNİ TANIMAĞA EHTİYACI VAR.
KEÇMİŞİ DƏYİŞƏ BİLMİRƏM. ONU ARXADA QOYMAĞIMA KÖMƏK ET. SƏN MƏNİM ÜÇÜN GƏLƏCƏK HAZIRLAMISAN VƏ MƏN QABAĞA GETMƏK İSTƏYİRƏM.
SONRA O, AVTOBUSLA OKLAHOMAYA UZAQ YOL GETDİ Kİ, ATASINA ÖZ QƏRARI HAQQINDA DEYƏRƏK VİDALAŞSIN.
ATA!
SALAM, ƏZİZİM. SƏNİ GÖRMƏYİMƏ ÇOX ŞADAM.



DORİNİN ATASININ ÜRƏYİ ZƏİF VƏ ÇOX XƏSTƏ İDİ.
DORİ, MƏN HƏMİŞƏ YAŞAMAQ İSTƏMİŞƏM VƏ NECƏ YAŞAMAQ LAZIM OLDUĞUNU BİLMİŞƏM. LAKİN İNDİ MƏN ÖLÜRƏM VƏ NECƏ ÖLMƏK LAZIM OLDUĞUNU BİLMİRƏM.
ATA, MƏSİH YEGANƏ ŞƏXSDİR Kİ, BİZİ ÖLÜMƏ HAZIRLAYA BİLƏR. SƏN ONU QƏBUL EDƏ BİLƏRSƏN.
YOX! SAĞLAM OLANDA ONU İSTƏMİRDİM, İNDİ DƏ ONU İSTƏMİRƏM.
AXI, ATA, O SƏNİ SEVİR!
SƏSİNİ KƏS! BU BARƏDƏ BİR SÖZ BELƏ EŞİTMƏK İSTƏMİRƏM!
ATA, MƏN GƏLDİM Kİ, ADAMLARA İSA HAQQINDA DANIŞMAQDAN ÖTRÜ BAŞQA ÖLKƏYƏ MİSSİONER OLARAQ GETMƏYİMİ SƏNƏ DEYİM.
HƏYATINI BELƏ YAŞAMAQ İSTƏYİRSƏNSƏ, ONDA HEÇ ÇANTANI AÇMA... KALİFORNİYAYA QAYIT!
ATA, ELƏ DEMƏ!
DEYİRƏM!
SƏNİ BİR DAHA GÖRMƏK İSTƏMİRƏM.
DORİ TAKSİ SAXLAYIB ÇANTASINI GÖTÜRDÜ.
SAĞ OL, ATA... MƏN YENƏ DƏ SƏNİ ÇOX İSTƏYİRƏM.
BUNDAN SONRA DORİ ATASINI DAHA HEÇ VAXT GÖRMƏDİ.
RƏBB, O MƏNİ SEVƏN YEGANƏ ADAM OLUB. O MƏNİMLƏ NİYƏ BELƏ RƏFTAR ETDİ?
EVƏ GEDƏRKƏN, YOLDA ALLAH ONUNLA DANIŞDI.
„MƏNİM MƏHƏBBƏTİMDƏN SƏNİ HEÇ NƏ AYIRMAYACAQ".
„MƏN SƏNİ TƏK QOYMAYACAĞAM VƏ HEÇ VAXT TƏRK ETMƏYƏCƏYƏM".


ANAM DOĞULMAĞIMA PEŞMAN OLDU... UŞAQ OLANDA ATAM MƏNİM QEYDİMƏ QALMADI, İNDİ İSƏ O MƏNİ RƏDD ETDİ...
YALNIZ BİR DOST MƏNİ TƏRK ETMƏDİ – İSA. ÇOX SAĞ OL, ALLAH. SƏN MƏNİ TƏRK ETMƏYƏCƏKSƏN. LAKİN XAHİŞ EDİRƏM, QƏLBİMDƏKİ BU DƏHŞƏTLİ YARALARI SAĞALT!
MİSSİONER MƏKTƏBİNDƏ...
NƏ GÖZƏL İNSANDIR. ONUN ARVADI XOŞBƏXT ADAM OLACAQ.
NƏ YAXŞI QIZDIR. GÖRƏSƏN, ONUN ADI NƏDİR?
DORİ, MƏNİMLƏ NAHAR ETMƏK İSTƏYİRSƏNMİ?
BƏLİ, İSTƏYİRƏM!
LYOD VƏ DORİ ONDAN SONRA GÖRÜŞMƏYƏ BAŞLADILAR VƏ ONLARIN DOSTLUĞU BÖYÜDÜ.
DORİ, MƏN SƏNİ SEVİRƏM. MƏNƏ ƏRƏ GEDƏRSƏNMİ?
BƏLİ, MƏMNUNİYYƏTLƏ!
SONRA...
ALLAH, SƏN NƏ QƏDƏR XEYİRXAHSAN Kİ, BELƏ ADAMIN MƏHƏBBƏTİNİ MƏNƏ VERDİN? O MƏNİM ZAHİRİMƏ BAXMIR. BU, HƏQİQƏT OLMASI ÜÇÜN ÇOX YAXŞIDIR.
KƏLAMI VASİTƏSİLƏ ALLAH ONA CAVAB VERDİ...
EVLƏRİNİ, QARDAŞLARINI, BACILARINI, ATALARINI, ANALARINI MƏNƏ GÖRƏ TƏRK EDƏN BU HƏYATDA YÜZ QAT ALACAQ VƏ ƏBƏDİ HƏYATI DA MİRAS ALACAQ.


ALLAH, BİZİ BU DÜNYA ÜÇÜN XEYİR-DUA ET, EVİMİZİ BAŞQA ADAMLAR ÜÇÜN XEYİR-DUA ET.
VƏ RƏBB, MƏNİ BİR GÜNLÜK GÖZƏL EDƏ BİLƏRSƏNSƏ, BU GÜN MƏNİ GÖZƏL ET!
MİNNƏTDARAM, RƏBB! BU GÜN MƏN ÖZÜMÜ GÖZƏL HİSS EDİRƏM!
LYODLA DORİ EVLƏNƏNDƏN SONRA CƏNUB-ŞƏRQİ ASİYADA YERLƏŞƏN BÖYÜK ADAYA, YENİ QVİNEYAYA MİSSİONER OLARAQ YOLLANDILAR.
YENİ QVİNEYA
ONLAR BİR ÇOX ADAMA ALLAHDAN DANIŞDILAR.
ALLAH, HƏYATIMDA BÜTÜN SƏHV İŞLƏRİMƏ GÖRƏ MƏNİ BAĞIŞLA VƏ MƏNİM HƏYATIMA DAXİL OL.
ÇOX ADAM İMAN GƏTİRİB HƏYATINI ALLAHA HƏSR ETDİ.
DORİ ALLAHIN MƏHƏBBƏTİNİ TANIDI. BU ONU QAYĞIKEŞ VƏ SEVƏN QADIN ETDİ.
BALACA, TƏNHA QIZ İLLƏR ƏRZİNDƏ ONU BİR KİMSƏNİN SEVMƏSİNİ GÖZLƏYİRDİ...


İLLƏR KEÇƏNDƏN SONRA DORİ ÖZ UŞAQLARINA DANIŞIRDI...
KEÇDİYİM ƏZABLAR VASİTƏSİLƏ ALLAHI TANIDIM VƏ ÖYRƏNDİM Kİ, O, LƏYAQƏTSİZ, SAYILMAYAN ADAMI GÖTÜRÜB, ONU BÖYÜK EDİR. HƏR ŞEYİ UNUTSANIZ, BUNU UNUTMAYIN.
ÇOX İLL°R KEÇIB, LAKİN DORİ H°L° D° BU SÖZÜ DÜNYADAKİ UŞAQLARA DEYİR
MƏN ALLAHI ATA KİMİ NECƏ TANIDIĞIM KİMİ, SİZ DƏ ONU ELƏ TANIMAQ İSTƏYİRSİNİZMİ? MÜMKÜN QƏDƏR SADƏ SÖZLƏ İZAH ETMƏYƏ ÇALIŞACAĞAM.
HƏTTA MƏN BALACA OLANDA DA BİLİRDİM Kİ, HAMIMIZ PİS İŞLƏR GÖRÜRÜK, MƏSƏLƏN:
SONRA BUNU ƏL-ÜZ YUYANA TÜPÜRƏCƏYƏM.
YALAN DANIŞMAQ...
DORİ, BU DƏQİQƏ BURAYA GƏL!
SÖZƏ BAXMAMAQ
ÇOX ADAMLARA NİFRƏT VƏ PAXILLIQ EDİRDİM.
OĞURLUQ...
ALLAH BUNLARI GÜNAH ADLANDIRIR.


ALLAH OĞLU ÇARMIXDA ÖLƏRƏK GÜNAHLARIMIZIN CƏZASINI GÖTÜRDÜ.
ALLAH
İSA
İNSAN
ALLAH MÜQƏDDƏSDİR. GÜNAHLARIMIZ BİZİ ALLAHDAN AYIRIR. ALLAH DEYİR Kİ, GÜNAH ÖLÜMLƏ CƏZALANMALIDIR.
İSANIN SİZİN ÜÇÜN ÖLDÜYÜNƏ İNANSANIZ VƏ XAHİŞ ETSƏNİZ Kİ, O GÜNAHLARINIZI BAĞIŞLASIN, ALLAHIN ÖVLADI OLACAQSINIZ. O ÖZ RUHU İLƏ GƏLİB SİZİN ÜRƏYİNİZDƏ YAŞAYACAQ VƏ SİZƏ KÖMƏK EDƏCƏK Kİ, ONUN ÜÇÜN YENİ HƏYAT YAŞAYASINIZ.
GÜNAH
XOŞ XƏBƏR
İSA BU GÜN SAĞDIR! O ÖLÜLƏRDƏN DİRİLDİ VƏ GÖYLƏRƏ QALXDI.
ALLAHIN YANINA GƏLİB ONA HƏYATINIZI VERMƏK İSTƏYİRSİNİZMİ? ONDA BU DUANI SÖYLƏYİN...
ƏZİZ ALLAH, ÇOX SAĞ OL Kİ, GÜNAHLARIMI GÖTÜRMƏK ÜÇÜN İSANI GÖNDƏRDİN.
XAHİŞ EDİRƏM, SƏHV ETDİYİM BÜTÜN İŞLƏRİ MƏNƏ BAĞIŞLA. HƏYATIMA GƏL VƏ XİLASKARIM OL. BU ANDAN ETİBARƏN HƏYATDA MƏNİ İSTİQAMƏTLƏNDİR.
AMİN.
ALLAH AİLƏSİNƏ XOŞ GƏLMİSİNİZ! O SİZİ SEVİR VƏ SİZİ HEÇ VAXT TƏRK ETMƏYƏCƏYİNƏ VƏ UNUTMAYACAĞINA SÖZ VERİR. ALLAHI DAHA YAXŞI TANIMAQ ÜÇÜN NÖVBƏTİ ÜÇ VACİB ADDIMA FİKİR VERİN:
1.
HƏR GÜN DUADA ALLAHLA SÖHBƏT ETMƏK ÜÇÜN VAXT AYIRIN,
2.
VARINIZDIRSA, ONUN KƏLAMI OLAN BİBLİYANI OXUYUN. MÜQƏDDƏS KİTAB VASİTƏSİLƏ O SİZİNLƏ DANIŞACAQ VƏ HƏR GÜN SİZƏ MƏSLƏHƏT VERƏCƏK.
3.
MÜMKÜN QƏDƏR BAŞQA İMANLILARLA ÇOX GÖRÜŞÜN.
ONLAR SİZİN YENİ AİLƏNİZDİR, SİZİ RUHLANDIRACAQ VƏ İMANDA BÖYÜMƏKDƏ ONLAR SİZƏ KÖMƏK EDƏCƏK.

THIS COMIC IS AN ADAPTION OF THE BOOK:
**DORIE: THE GIRL NOBODY LOVED**
© 1979 PUBLISHED ORIGINALLY BY MOODY PRESS.

INTERNATIONAL COPYRIGHT SECURED
FOR THE COMIC EDITION THROUGH MOODY PRESS.
© 2002 FOR THE AZERI **DORIE COMIC**
ALL RIGHTS RESERVED.

# DORİ

## SEVİLMƏDİ, İSTƏNİLMƏDİ, İNCİDİLDİ

SEVİLMƏDİ, İSTƏNİLMƏDİ, İNCİDİLDİ DORİ YETİM OLARKƏN BÜTÜN BUNLARI YAŞADI. VALİDEYNLƏRİ TƏRƏFİNDƏN TƏRK EDİLMİŞ, YAŞADIĞI HƏR BİR EVDƏ ÖZÜNƏ PİS MÜNASİBƏT GÖRMÜŞ BU QIZ UŞAQLIQ İLLƏRİNİ YALNIZ BƏDBƏXTLİK VƏ QƏDDARLIQ İÇİNDƏ KEÇİRMİŞDİR.

LAKİN BU VƏZİYYƏTDƏ O ÖZÜNƏ ÇOX YAXŞI BİR DOST TAPDI. ÇƏTİN VAXTLARINDA BU DOST DORİYƏ YAXIN OLUR, MƏYUSLUQ VAXTLARINDA ONA ÜMÜD VERİRDİ.

BU GÜN DORİ ÜMÜD SÖZÜNÜ DÜNYANIN BÜTÜN UŞAQLARINA DEYİR: „MƏN GÖRDÜM Kİ, O, ACİZ İNSANI GÖTÜRÜR VƏ ONU BÖYÜK EDİR. SİZƏ DEDİYİM BÜTÜN SÖZLƏRİ UNUTSANIZ, BUNU HEÇ VAXT UNUTMAYIN –

**ALLAH SİZİ SEVİR!"**



